Azərbaycan Respublikasının
Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin
İnkişafına
Dövlət Dəstəyi Fondu

Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği

# Hüseyn Cavidin dünyagörüşündə milli-dini maarifçilik və turançılıq məsələləri

**Faiq Ələkbərli**
**dosent, fəlsəfə üzrə fəlsəfə doktoru**

## I YAZI

***Hüseyn Cavid (1882-1941) Naxçıvanda ruhani ailəsində anadan olub, molla məktəbində ibtidai təhsil aldıqdan sonra orta təhsilini M.T.Sidqinin "Məktəbi-Tərbiyə" adlı yeni üsullu məktəbində və 1899-1903-cü illərdə Təbrizin "Talibiyyə" mədrəsəsində davam etdirmişdir. O, burada ərəb və fars dillərinə yiyələnmiş, ancaq ağır göz xəstəliyinə görə təhsilini dayandırmış və bir müddət ticarətlə məşğul olmuşdur. Daha sonra Təbrizdən Urmiyaya getmiş 1904-cü ilin may ayına qədər orada yaşamış, oradan Tiflisə gedib orada yol tikintisi ilə məşğul olan şirkətdə mühasib olaraq işləməyə başlamışdır. 1906-cı ildə qardaşı Məhəmməd onu İstanbula ali təhsil almağa göndərmiş, İstanbul Universitetinin ədəbiyyat şöbəsini bitirmişdir (1909). O, ali təhsilini bitirdikdən sonra əvvəlcə Naxçıvanda, daha sonra isə Gəncə və Tiflisdə, 1915-ci ildən isə Bakıda müəllimlik etmişdir. Cümhuriyyət quruculuğunda da yaxından iştirak edən Cavid bir sıra milli ruhlu əsərlər yazmışdır.***

27 Aprel işğalından sonra da müəllimliyə və yazarlığa davam edən Cavid 1926-cı ildə müalicə üçün Berlinə (Almaniyaya) getmiş və burada ziyalıların mənəvi iztirablarını əks etdirən bir sıra siyasi-lirik, lirik-epik əsərlə yazmışdır. Vətənə döndükdən sonra daima təqiblərlə üzləşən Cavid 1938-ci ildə həbs olunmuş, 1939-cu ildə 8 il islah əmək düşərgəsinə məhkum edilmişdir. O, 1941-ci ildə İrkutsk vilayətinin Tayşet rayonunda dünyasını dəyişmiş, çox sonralar məzarı Naçxıvana gətirlmişdir.

Onun əsas əsərləri aşağıdakılardır: "Ana" (1913), "Maral" (1912), "Şeyx Sənan" (1914), "Şeyda" (1917), "Müharibə və ədəbiyyat", "Həsbi-hal", "Peyğəmbər", "Topal Teymur", "Səyavuş", "Xəyyam" və b.

H.Cavidin dini və fəlsəfi görüşlərində İnsan+Tanrı bütünlüyü mühüm yer tutur. O, yazırdı ki, bir könülə iki sevgi sığışmaz: "könül bir, sevgi bir, böyük Tanrı bir".1 Cavidə görə, insan ilahi sevgiyə qovuşmaq üçün mücadilə verir, çünki sevgidədir ancaq Allah rizası, sevgisiz bir könül şeytan yuvasıdır. Bu dünya isə kimsəyə qalmayacaq, çünki əsli, əsası çürükdür. 2

Bizcə, o, Şeyx Sənan timsalında da ilahi məhəbbəti bütün sevgilərdən üstün tutmuşdur. Yəni bir xristian qadınına aşiq olan Şeyx Sənan üçün dini əngəl olmadığı kimi, vahid Tanrıya gedən yolda da nə dinlər, nə də digər məzhəblər əngəl ola bilməz. Bu baxımdan bir kafir qadına uyub dinini, imanını satan Şeyx Sənanı qınamaqla yanaşı, Cavidə görə, o, cahan durduqca parlayan, yüksələn "məhəbbət", "eşq" adlı təriqətin də əsasını qoyub:

**Uyub sən bir mələksimayə satdın dini, imanı,**
**Atıb ehkami-Quranı, uzaqlaşdın təriqətdən.**
**Fəqət xoş bir təriqət qoydun, əsla məhv olub getməz,**
**Cihan durduqca parlar, yüksəlir, düşməz tərəvatdən.**
**Ziyarətgahını gülbusələr təzyin edər hər an,**
**Sən əhli-eşq için bir Kəbə yapdırdın məhəbbətdən...**
**Məhəbbətsiz bütün mənayi-xilqət şübhəsiz hiçdir,**
**Məhəbbətdir əvət, məqsəd şu pürəfsanə xilqətdən. 3**



Burada incə bir məqam var ki, Cavid üçün yaxın deyil, uzaq məhəbbət, uzaq səadət dəyərlidir. Onun fikrincə, yaxın məhəbbət və saədər müvəqqətidir. Bizcə, onun Şeyx Sənanın məhəbbətinə olan hörməti də uzaq və əlçatmaz olması ilə bağlı idi. Ona görə, yaxın olan məhəbbət, səadət insan nəfsi nəticəsində heç olur. O, yazırdı:

**Gözəl mələksə... bulutlarda göy üzündə yaşar:**
**Uzaq, bəşərdən uzaq bir mühitə mail olur.**
**Uzaq, bəşərdən uzaq, gizli bir fəzaya qoşar;**
**Yaşar mələk kibi, xoş bir xəyali-müğfil olur.**

**Əvət, uzaqda səadət var, eşqə hörmət var,**
**Yaqın zəhərlidir, amma uzaqda cənnət var;**
**Uzaqda var əbədiyyət ki, başqa nemətdir. 4**

Çox güman ki, peyğəmbərlərin Yaradan ideyası da əlçatmaz, uzaqda olduqları üçün ilahi məhbbət xarakteri daşıyır. Bizcə, Cavidin utopik fəlsəfəsində bir qadının sevgisi dalınca qoşan Şeyx Sənanla, tək Yaradan ideyasını təbliğ edən peyğəmbər arasında çox da fərq yoxdur. Çünki hər ikisi qəhrəmandır; birisi yerdəki müqəddəs sevgisi üçün, o birisi gözəgörünməz ilahi eşq üçün mücadilə verir. Ona görə də, Cavid yalnız Şeyx Sənanlara deyil, Allahın dinini Yer üzərində yayan, təbliğ edən peyğəmbərlərə də böyük qiymət vermişdir. Onun fikrincə, peyğəmbərlərin hər biri bir qəhrəman olmuş, öz ümmətlərin doğru yol - Allahın yolunu göstərmişlər:

**İştə onlar, hər biri bir qəhrəman,**
**Həp çalışmış durmadan, sarılmadan...**
**Həpsinin amalı bir, əfkarı bir,**
**Həpsinin iqbalı bir, idbarı bir.**
**Həpsi yalnız bir həqiqət aşiqi**
**Həpsi bir vicdanla dinlər xaliqi.**
**Həpsinin qəlbində bir sevdası var,**
**Həpsi Məcnun,həpsinin Leylası var. 5**

Deməli, Şeyx Sənanlar sevgilisini yerdə ararkən peyğəmbərlər göydə aramış, hər bir peyğəmbər İlahi Eşq naminə mücadilə vermişlər. Ancaq peyğəmbərlər öz təbliğatlarını yalnız Yaradandan gələn ilhamla deyil, eyni zamanda öz hissiyyatları ilə də aparmışlar. Bu zaman da bir peyğəmbərin dedikləri digər peyğəmbərlə bəzən uyuşmamışdır. Cavid yazırdı:

**Ağlamışlar həpsi insaniyyətə,**
**Xadim olmuşlar bütün bir niyyətə.**
**Parlamış həpsində bir haq şöləsi,**
**Xeyrə munis, şərə düşman cümləsi.**
**Haqdan almış həpsi ilhamatını,**
**Dinləmiş həm kəndi hissiyyatını.**
**Hər kəs inşad eyləmişdir bir kitab,**
**Ta ki, ihzar eyləsin bir inqilab.**
**Başqa bir 'bənlik' ararkən hər biri,**
**Uymaz olmuş bir-birə çoq sözləri.**
**İştə hər dahidə var bir etiyad,**
**Yan baqıb təqlidə, eylər ictihad.**
**Pək təbiidir ki, hər sahibhünər**
**Bir təcəddüd, bir xüsusiyyət dilər. 6**

O, Allahın tək olduğu halda peyğəmbərlərin müxtəlif dinlər ortaya qoymasını təsadüfi hesab etmir. Onun fikrincə, Allah tək olduğu halda peyğəmbərlərin müxtəlif dinlər yaratması o anlama gəlir ki, hərə Yaradanı öz bildiyi kimi başa düşür. Bu isə o deməkdir ki, bütün peyğəmbərlər vahid Allaha tapınsalar da, ancaq Onu dərk etmə yolları bir qədər fərqlidir. Peyğəmbərlərin Allahın dərki yolundakı fərqli düşüncələri də ayrı-ayrı insanlar tərəfindən müxtəlif yerlərə yozulmuşdur. Cavid yazırdı:

**Sonra, lakin sonra pək çoq sürmədən,**
**Fırlayıb meydana bir çoq rahzən,**
**Onların fikrində bulmuşlar təzad;**
**Hər biri bir yolda etmiş ictihad.**
**Bir-birindən xəlqi istikrah için**
**Hər biri bir dürlü olmuş xuşəçin.**
**Bir yığın əfsanə, bin lafü gəzaf**
**Uydurub hər kəs çıqarmış ixtilaf.**
**Hər biri boş bir xəyal almış ələ,**
**Uğraşıb dünyaya salmış vəlvələ. 7**

Bununla da, Cavid haqlı olaraq yazırdı ki, Yaradan tək olduğu halda, peyğəmbərlərin öz hissiyyatlarına əsaslanaraq insanları Onu fərqli yollarla dərk etməyə dəvət etmələri, daha sonra da peyğəmbərin ətrafındakılarının, ya da digərlərinin bundan çıxış edərək müxtəlif ideyalar ortaya atmaları ixtilaflara, müxtəlif məzhəblərin yaranmasına səbəb olmuşdur. O, yazırdı:

**Ayrılıb bir mürşidin peyrəvləri,**
**Ayrı məzhəblər çıqarmış; hər biri**
**Bir yığın böhtanlar icad eyləmiş,**
**Pirinə həzyanlar isnad eyləmiş.**
**Anlamaz, kor xalqı qandırmış bütün,**
**Hər nə qusmuş, həp inandırmış bütün.**
**Qübbə yapmışlar küşük bir həbbəyi,**
**Söyləmiş: 'haq məndə..'' hər külxanbəyi.**
**Hakim olmuşlar bütün izanlara,**
**Hər kəs uymuşdur o bivicdanlara.8**

Bizcə, Cavid o məsələdı haqlı idi ki, Yaradanı dərk etmə yolunda fərqliliyin təməlini ilk növbədə, özünü Yaradanın elçisi hesab edən peyğəmbərlər və onların müridləri qoymuşlar. Daha sonra da, peyğəmbərlərin yolundan ayrılanların hər biri də bir məzhəb icad etmiş, yalnız özlərinin doğru yolda olduğunu iddia edib Haqın onunla olduğunu söyləmişlər. Beləliklə, müxtəlif məzhəblər və firqələr ortaya çıxmış, hər öz cığrını açmış, bu yolda öz həmfikirlərinə belə düşman olmuş və son nəticədə Yaradanın dərkinə münasibətdə antaqonist mülahizələr irəli sürülmüşdür. Cavid yazırdı:



**Firqələr təşkil edilmiş anbaan,**
**Olmamış əskik niza heç bir zaman.**
**İzələyib hər firqə çıqmaz bir cığır,**
**Bir dügün-dərnək qurulmuş zırhazır.**
**Hər kəs uymuş kəndi sərsəm fikrinə,**
**Düşman olmuş çoqları öz həmfikrinə.**
**Eyləmiş hər kəs təsəvvür, qayəsiz,**
**Başa yol, bir başqa xaliq, başqa iz.**
**Hər kəs aldanmış da sapmış bir yana,**
**Bin çeşid bütlər yapıb tapmış ona.**
**Hər kəsin ruhunda bir xaliq gülər,**
**Öylə bir xaliq ki, xəlq etmiş bəşər. 9**

Deməli, iki cür Xaliq var: 1) əsil Xaliq, 2) İnsanların yaratdığı "Xaliqlər". Belə anlaşılır ki, insanların böyük çoxu əsil Xaliqi bir kənara qoyub özlərindən uydurduqları "xaliqlər"ə tapınırlar. Əsil Xaliqlə insanların uydurduğu "xaliqlər" arasında isə daban-dabana iç ziddiyyətlərlə yanaşı zahiri oxşarlıqlar da vardır. Cavid yazırdı:

**Pək tühaf!...Bir firqə digər firqənin**
**Xaliqindən diksinib olmaz əmin.**
**Halbuki, hər kəscə Haq bir, Tanrı bir...**
**Ya bu sərsəmlik, bu azğınlıq nədir!?**
**Bir yığın insan arar zülmətdə nur,**
**Bir yığın: haq bizdədir, söylər durur.**
**Bir güruh eylər pərəstiş vəhdətə,**
**Bir güruh eylər təməllüq kəsrətə.**
**Hər kəs artıq izləyib bir yol gedər,**
**Əyri, düz, çirkin gözəl – iman edər.**
**Cahil – arif, bir çoban – bir feyləsuf**
**Kəndini sanmaqda... ərbabi-vüquf.10**

*1 Cavid H.Əsərləri. Beş cilddə II cild. Bakı, «Lider nəşriyyat», 2005, s.69*

*2 Cavid H. Əsərləri. Beş cilddə II cild. Bakı, «Lider nəşriyyat», 2005, s.69*

*3 Cavid H.Əsərləri. Beş cilddə II cild. Bakı, «Lider nəşriyyat», 2005, s.58*

*4 Yenə orada, s.70*

*5 Yenə orada, s.84-85*

*6 Yenə orada, s.85*

*7 Yenə orada, s.85*

*8 Yenə orada, s.86*

*9 Yenə orada, s.86*

*10 Yenə orada, s.86*

***Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap olunur***